# Cəmi 23 saata




## Düşmən bu dəfə "dəmir yumruğ"un qarşısında bir gün belə davam gətirə bilmədi

Prezident İlham Əliyev deyir və edir. Sentyabrın 19-dan 20-dək Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri bir daha göstərdi ki, heç bir xəbərdarlıq söz xatirinə deyilmir. Bu hadisə deyilənlərdən və başına gələnlərdən dərs çıxarmayan, Qarabağdakı hərbi cinayətkar rejim və onun havadarları üçün dərs oldu. Cəmi 23 saat ərzində "dəmir yumruq" Qarabağda qalmış separatçıların başını birdəfəlik əzdi. Prezident İlham Əliyevin sentyabrın 20-də bununla bağlı xalqımıza müraciətində dediyi kimi, bu antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi: "Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır. Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir. Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir".

Azərbaycan rəhbərliyi dəfələrlə bəyan etmişdi ki, 10 noyabr Bəyanatının müddəalarına zidd olaraq respublikamızın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Eyni zamanda Azərbaycan dövləti Qarabağdakı qanunsuz və cinayətkar hərbi dəstələrin fəaliyyətinin yolverilməzliyini Ermənistana və separatçılara xəbərdarlıq etsə də, nəticə çıxarmamışdılar.

→ 5

# Cəmi 23 saata



## Düşmən bu dəfə "dəmir yumruğ"un qarşısında bir gün belə davam gətirə bilmədi

**Prezident İlham Əliyev indiyə qədər bir neçə dəfə Qarabağdakı cinayətkar rejimlə bağlı sərt xəbərdarlıqlarını etmişdi. Bu ilin may ayında dövlətimizin başçısı Laçından xəbərdarlığını edərək demişdi:**

"Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var".

### Azərbaycan öz suverenliyini bərpa etdi

Prezident İlham Əliyev deyir və edir. Sentyabrın 19-dan 20-dək Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri bir daha göstərdi ki, heç bir xəbərdarlıq söz xatirinə deyilmir. Bu hadisə deyilənlərdən və başına gələnlərdən dərs çıxarmayan Qarabağdakı hərbi cinayətkar rejim və onun havadarları üçün dərs oldu. Cəmi 23 saat ərzində "dəmir yumruq" Qarabağda qalmış separatçıların başını birdəfəlik əzdi. Prezident İlham Əliyevin sentyabrın 20-də bununla bağlı xalqımıza müraciətində dediyi kimi, bu antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi: "Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır. Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir. Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir".

Qeyd edək ki, Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərindən biri olan öz ordusunun Qarabağ ərazisindən çıxarılması tələbini pozub. Bu ölkə müharibədən sonra ordusunun qalıqlarını Qarabağdan nəinki çıxarmayıb, əksinə, onu yenidən gücləndirməyə çalışıb. Bu məqsədlə 2021-2022-ci illərdə Ermənistandan Qarabağa müxtəlif silah-sursat daşınıb.

Son dövrlərdə isə Qarabağdakı erməni terrorçuları tərəfindən döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə daha da gücləndirilməsi, qanunsuz hərbi bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər müşahidə olunurdu. Neçə vaxt idi ki, onlar Azərbaycan Ordusunun mövqeləri qarşısında yeni səngərlər qazmağa, müxtəlif istehkam qurğuları yaratmağa cəhd göstərirdilər.

### Ağ bayraq qaldırmaqdan başqa yolları qalmadı

Azərbaycan rəhbərliyi dəfələrlə bəyan etmişdi ki, 10 noyabr Bəyanatının müddəalarına zidd olaraq respublikamızın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Eyni zamanda Azərbaycan dövləti Qarabağdakı qanunsuz və cinayətkar hərbi dəstələrin fəaliyyətinin yolverilməzliyini Ermənistana və separatçılara xəbərdarlıq etsə də, bundan nəticə çıxarmırdılar.

Sentyabrın 19-da erməni terrorçuların Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qruplarının Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda quraşdırdıqları minalar nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşlarının və polislərimizin həlak olması isə səbir kasamızı daşdıran hadisələr oldu. Elə həmin gündən başladılan antiterror tədbirləri nəticəsində qanunsuz erməni hərbi dəstələrinin Qarabağdakı bütün mövqeləri və hərbi infrastruktur və texnikaları məhv edildi.

Azərbaycan Ordusunun qarşısında tab gətirə bilməyən Ermənistan ordusunun Qarabağda qalmış bölmələrinin, 30 ildən artıqdır ki, burada at oynadan separatçıların sentyabrın 21-də ağ bayraq qaldırmaqdan başqa yolları qalmadı. Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək Qarabağda öz milli haqqını təmin etdi. Bu hadisə Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin, respublikamızın milli maraq və mənafelərini layiqincə təmin etməsinin növbəti təntənəsi oldu.

Bu antiterror tədbiri bir daha Azərbaycan Ordusunun yüksək peşəkarlığına və döyüş hazırlığına malik olduğunu göstərdi. Cəmi 23 saata hərbi bölmələrimiz qarşıya qoyulmuş bütün strateji hədəflərə tam nail oldular. Ən əsası terrorçulara qarşı tədbirlər zamanı yalnız hərbi hədəflər vuruldu, kommunikasiyalar və yüksəkliklər nəzarətə götürüldü, Qarabağın erməni sakinləri arasında zərər çəkən olmadı. Antiterror tədbirlərinin mülki əhaliyə zərər vurmadan bu cür peşəkarlıqla həyata keçirilməsi dünya təcrübəsində nadir rast gəlinən nümunədir. Ermənistan KİV guya mülki əhali arasında ölənlərin olması barədə dezinformasiya yaysa da, bunu təsdiqləyən bir faktı belə ortaya qoya bilmədilər.

Sentyabrın 9-da qondarma "seçki"lər keçirən Qarabağdakı qanunsuz rejim antiterror tədbirlərindən və başına dəyən zərbədən sonra ağıllanmağa başladı. Vətən müharibəsinə qədər xalqımızı Yevlaxa qədər torpaqlarımızı işğal etməklə hədələyən, son günlərə qədər reinteqrasiya məsələlərini müzakirə etmək üçün Yevlaxa gəlməkdən boyun qaçıran Qarabağın erməni sakinlərinin nümayəndələrini "dəmir yumruq" Azərbaycanın mərkəzi hakimiyyətinin şərtlərini dinləmək və yerinə yetirmək üçün Yevlaxa gəlməyə məcbur etdi.

Beləliklə, cəmi 23 saat çəkən antiterror tədbirində Azərbaycan Qarabağda yerləşən separatçıların başını əzdi. Düşmən bu dəfə "dəmir yumruğ"un qarşısında bir gün belə davam gətirə bilmədi.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 22 sentyabr.- S.1; 5.